# GÖYƏRÇİN

İSSN-0207-4710

9

2024



# YÜZ AĞIL

*(Altay xalq nağılı)*



Gözəl bir çəməndə durna və tülkü qarşılaşdı. Tülkü diqqətlə durnaya baxıb kinayə ilə dedi:

- Yazıq durna, sənin cəmi-cümlətanı ikicə ayağın var imiş ki!

Durna yuxarıdan aşağı tülküyə baxdı. İstər-istəməz onun ayaqlarını saydı:

-Bir iki, üç, dörd...

Durna necə təəccübləndisə, uzun dimdiklərini geniş açıb bir-birinə vurdu. Dimdiklərin şaqqıltısından tülkü bir az səksənsə də özünü o yerə qoymadı. Lovğa-lovğa dedi:

- Ay yazıq, heç sənin ağzında bircə dənə dişin də yox imiş ki! Səni görəndə özümə hörmətim artdı. Bir bax, mənim ağzımda otuz altı dişim, başımda yüz ağlım, dörd ayağım, iki qulağım və gözəl, upuzun quyruğum var!

Durna incidi. Uzun boynunu bir az da yuxarı uzadanda gördü ki, onlara sarı bir adam gəlir. O həyəcanla dedi:

- Ay, çoxbilmiş, ağıllı tülkü lələ, bizə sarı bir ovçu gəlir! Fikirləş gör necə eləyək ki, ondan canımızı qurtaraq.

Ovçu sözünü eşidən tülkünün məsləhət verməyə vaxtı nə gəzirdi. O, tez quyruğunu qısıb, yaxınlıqdakı bir porsuq yuvasına girdi. Durna da onun dalınca özünü həmin dar dəliyə soxdu.

Bunu görən ovçu yaxına gəlib porsuq yuvasını qazmağa başladı. Durna tülküyə yalvardı:

- Ay çoxbilmiş tülkü, ovçu porsuq yuvasını qazıb bizi öldürəcək. Gör başımıza nə çarə qılırsan. Axı sənin dörd ayağın, otuz altı dişin, yüz ağlın var!

Tülkü zarıdı:

- Qorxu məndə ağıl qoydu ki, onu işlədim. Başımda heç ağlımın yarısı da qalmayıb.

Durna yenə yalvardı:

- Ovçu yaxınlaşır, yaxınlaşır... Mənim ağıllı, dörd ayaqlı, otuz altı dişli tülküm, vəfalı tülküm, sən bir çarə tapa bilməsən axırımız necə olacaq?

Yuvanın ağzını genişləndirən ovçu əlini uzadıb, durnanın ayaqlarından tutub çölə çıxardı. Qorxudan durnanın ürəyi getdi. Ovçu onu ölmüş bilib kənara tulladı və yuvanı qazmağa davam elədi.

Tülkü qorxudan tir-tir titrəyirdi. Ovçu onun quyruğundan dartıb çölə çıxardı. Tülkünü öldürüb, dərisini soydu. Düşündü ki, bunu aparıb özümə yaxşı bir papaq tikdirərəm. Quyruğunu isə qamçımın sapına bağlayacağam.

Ovçu işini görüb qurtarandan sonra durnanı da götürüb evə getmək istəyəndə durna artıq havada uçurdu...

İki qulağı, dörd ayağı, otuz altı dişi və yüz ağlı olan tülkü beləcə öldü. Cəmi bircə ağlı olan durna isə sağ qaldı...

**Tərcümə edib uşaqlar üçün işləyən: R.Y.Əliyev**

